

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 69 (23.231)

*16 aprel 2019-cu il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

**Qiyməti 20 qəpik**


## K.H.Məmmədəliyevin Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin rəisi təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamil Həsən oğlu Məmmədəliyev Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin rəisi təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 15 aprel 2019-cu il*

# Naxçıvanda müşavirə keçirilib






Aprelin 15-də "Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə" müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir: Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında innovasiyalar uğurla tətbiq olunur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikanın bütün ərazisi fiber-optik xətlə, stasionar və mobil rabitə xidməti, eləcə də sürətli internetlə təmin edilmişdir. Bu gün muxtar respublikanın ən ucqar kəndində yaşayan insanlar da dünyada və ölkəmizdə gedən prosesləri izləyir, fikir və münasibətlərini bildirirlər. Təhsil müəssisələrinin yeni texnologiyalar və internetlə təminatı isə gənclərin hazırlıq səviyyəsini və innovasiyalara çıxış imkanlarını xeyli yüksəltmişdir. Ötən illərdə muxtar respublikada innovasiyaların tətbiqi sahəsində yaradılan şərait imkan verir ki, gənclərin ideyaları dəstəklənsin və startap layihələri uğurla həyata keçirilsin. Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması, müxtəlif festivalların keçirilməsi və digər tədbirlər uğurlu startap layihələrindəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək demişdir ki, muxtar respublikada innovativ inkişafa dayanan təhsil siyasəti həyata keçirilir. Təhsilin inkişafına dair yeni fərman və sərəncamlar imzalanır, maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı elmin nəzəriyyə və təcrübə ilə inteqrasiyasına, təhsilə fərqli yanaşma mexanizminin formalaşmasına, qarşılıqlı və çoxşaxəli fəaliyyət planlarının hazırlanmasına və ən əsası dövlət kadr siyasətinin inkişafına səbəb olmuşdur. Bu Sərəncam səriştəyə əsaslanan insan resurslarını müasirləşdirmək, səmərəli əməkdaşlıq mexanizmi yaratmaq, müasir infrastruktur qurmaq, dünya təhsil standartlarına uyğun təhsil modeli formalaşdırmağa şərait yaratmışdır. Ötən dövrdə təhsil sahəsində hamiliklə bağlı kompleks tədbirlər, seminar və konfranslar, təcrübələr həyata keçirilmiş, təhsil yarmarkalarında pedaqoji profilli ixtisasların məzunlarının işlə təminatına tələbat artmışdır.

Surə Seyid muxtar respublikanın mədəniyyət, gənclərlə iş, səhiyyə, sosial siyasət, iqtisadi inkişaf, ekologiya, yeni texnologiyalar, memarlıq və mühəndislik, nəqliyyat, beynəlxalq əlaqələr, kütləvi informasiya vasitələri və ordu quruculuğu sahələrində hamiliklə bağlı görülən işlərdən geniş bəhs etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 3 aprel 2019-cu il tarixli Sərəncamını kadr hazırlığı sistemində akademik hazırlığın təcrübə ilə əlaqəsinin vəhdətinə və yetişən kadrların gələcək karyera imkanlarına ən etibarlı təminat olduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, Sərəncam yeni dövrün tələbi olan startap anlayışının əhatə etdiyi bütün sahələrdə innovasiyanı və dayanıqlı inkişafı əsas götürür.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov demişdir ki, muxtar respublikada əhalinin bütün təbəqələri müasir rəqəmsal xidmətlərdən istifadə imkanı əldə ediblər. Hazırda muxtar respublikanın telekommunikasiya əlaqələrini təmin edən 1600 kilometrdən artıq optik kabel xətləri mövcuddur. Fiber-optik kabel xətləri üzərində qurulan iri tutumlu telekommunikasiya şəbəkələri elektron xidmətlərin inkişaf etdirilməsinə, o cümlədən elektron hökumət, bank, maliyyə, vergi, təhsil, səhiyyə və digər sahələr üzrə elektron xidmətlərin inkişafına təkan vermişdir. Naxçıvanın beynəlxalq trans Avroasiya fiber-optik magistrallarına 2, qlobal internet sisteminə 4 tərəfli çıxışı vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən "Elektron hökumət" portalı yaradılmışdır. "Bir pəncərə" prinsipi əsasında fəaliyyət göstərən 33 dövlət təşkilatı tərəfindən hazırda 291 elektron xidmət istifadəçilərə təqdim olunur. Bundan əlavə, 150-yə yaxın dövlət və ictimai təşkilata elektron poçt ünvanları və domen adları verilmiş, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilmişdir. Hazırda muxtar respublika üzrə 236 elm və təhsil müəssisəsi, 17 muzey İnteraktiv Təhsil Sisteminə qoşulmuşdur. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan Distant Təhsil Mərkəzində fiziki məhdud imkanlı uşaqların sayı 24, audiokitabxanadan mütəmadi istifadə edənlərin sayı isə 375 nəfərdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar Rabitə və Yeni Texnologiyalar Nazirliyi səylərini daha da artırmışdır. Çin Xalq Respublikasının Huawei şirkəti ilə 5 illik razılaşmaya uyğun olaraq 2016-cı ildən başlayaraq tələbələrin şirkətin Şenjen şəhərindəki təlim mərkəzində 2 həftəlik təcrübə keçmələri təmin edilir. Həmçinin "Naxçıvan" Universitetində şirkət tərəfindən yaradılan İnformasiya Kommunikasiya Texnologiyaları Mərkəzi fəaliyyət göstərir. Naxçıvan Dövlət Texniki Kollecində isə nazirlik tərəfindən 5 fənn kabinəsi yaradılmışdır. Ötən ilin oktyabr ayında Naxçıvan Dövlət Universitetində "İdeyadan Biznesə" ümumrespublika startap müsabiqəsi təşkil edilmiş, universitetin "Nuhland" komandası ölkə üzrə milli seçimdə 3-cü yerə layiq görülmüşdür. Bu ilin mart ayında isə "Azərbaycanın startapı" Milli turuna hazırlıq məqsədilə "İdeyadan Biznesə" startap layihəsinin Naxçıvan turunun təşkil edilməsi ilə bağlı "Tədbirlər Planı" hazırlanmışdır.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev və Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev aidiyyəti üzrə məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Naxçıvan Muxtar Respublikasında son illərdə təhsilin davamlı inkişafını təmin edən sərəncamların qəbul edilməsi, güclü təhsil infrastrukturunun, maddi-texniki bazanın yaradılması, yüksəkixtisaslı kadr hazırlığını təmin edən dövlət proqramlarının, layihələrin uğurlu tətbiqi təhsilin beynəlxalq standartlar səviyyəsinə uyğunlaşmasına təkan verir. "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə 3 ali, 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 98 ixtisas və 1 lisey 31 təşkilata hamiliyə verilmişdir. Bu Sərəncamla hami təşkilatlar və təhsil müəssisələri arasında əlaqə genişlənmiş, qarşılıqlı əməkdaşlıq insan kapitalının inkişafına, iqtisadi cəhətdən dayanıqlı əmək bazarının yaradılmasına, təhsilverənlə işəgötürən arasında tələblərin formalaşmasına xidmət etmişdir.

Ali Məclisin Sədri demişdir: Bu gün Naxçıvan Dövlət Universitetində 60 ixtisas üzrə bakalavr, 42 ixtisas üzrə magistr, 15 ixtisas üzrə rezident, 11 ixtisas üzrə əlavə təhsil, Naxçıvan Müəllimlər İnstitutunda 8 ixtisas üzrə bakalavr, 3 ixtisas üzrə magistr, "Naxçıvan" Universitetində 15 ixtisas üzrə bakalavr, 6 ixtisas üzrə magistr, Naxçıvan Tibb Kollecində 8, Naxçıvan Dövlət Texniki Kollecində 8, Naxçıvan Musiqi Kollecində 10, peşə liseyi və məktəblərində isə, ümumilikdə, 22 ixtisas üzrə kadr hazırlanır. Kadr hazırlığı aparılan ixtisaslar muxtar respublikanın tələbatına tam uyğunlaşdırılmışdır. Hər il muxtar respublikada ali və orta ixtisas təhsili müəssisələrini 2200-dən artıq məzun bitirir. Peşə liseyi və məktəblərində isə hər il 3 mindən çox gənc müxtəlif peşələrə yiyələnir. Daim yeniləşən və təhsilin inkişafını tələb edən informasiyalı cəmiyyət kadr hazırlığı işinin yeni müstəvidə hazırlanmasını tələb edir. Ali Məclis Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 3 aprel 2019-cu il tarixli Sərəncamı kadr hazırlığına müasir yanaşma və vətəndaşın cəmiyyətə hərtərəfli inteqrasiyasını təmin edir. Yeni Sərəncamla 3 ali və 3 orta ixtisas təhsili müəssisəsini əhatə edən 109 ixtisas və 1 lisey müvafiq 36 təşkilata hamiliyə verilmişdir. Əlavə olaraq "İdeyadan başlanğıca" devizi ilə hami təşkilatlarla hamiliyə verilən təhsil müəssisələri arasında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin – startapların həyata keçirilməsi nəzərdə tutulub.

Ali Məclisin Sədri aid təşkilatlara tapşırıqlar verərək demişdir: Müasir dövrdə təhsil cəmiyyətin inkişafını təmin edən aparıcı istiqamət kimi davamlı olaraq yeniləşmə, ən son texnologiyalardan istifadə yolu ilə mütərəqqi ideyaların, bilik və bacarıqların tətbiqi xarakterini alır. Müasir əmək bazarında praktik bilik və bacarıqlara yiyələnmiş kadrlara tələbat artır. Buna görə də hami təşkilatlar ali və orta ixtisas təhsili müəssisələri ilə birlikdə kadr hazırlığına diqqəti artırmalı, qarşılıqlı əməkdaşlıq imkanlarından daha səmərəli istifadə etməli, kadrların ixtisas üzrə təcrübi bilik və bacarıqlarının artırılmasına nail olmalıdırlar. Bu səbəbdən hami təşkilatlar və hamiliyə verilən qurumlar arasında görüşlər intensiv xarakter daşımalıdır. Hami təşkilatlarla hamiliyə verilən ixtisaslar arasında əməkdaşlıq yeni ideya mübadiləsinə və innovasiyaların yaranmasına gətirib çıxara bilər. Bu zərurətdən yaranan "Startap Naxçıvan" hərəkatının əsas məqsədi muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır.

*Ardı 2-ci səhifədə*

Ali və orta ixtisas təhsili müəssisələrinə tapşırılır ki, hamiliyə verilən təşkilatlarla birgə tələbələrin startapla bağlı biliklərinin formalaşması, layihələrin hazırlanması, biznes planların qurulması və təqdimatı ilə bağlı maarifləndirici təlimlərin keçirilməsini təmin etsinlər. Hamiliyə verilən təhsil müəssisələri tələbələrin innovasiya mühitinin formalaşması və innovativ təkliflərinin həyata keçirilməsi üçün ictimai əsaslarla işləyən İnnovasiya Laboratoriyalarını (InnoLab) yaratsın. Laboratoriyalar tələbələrin layihələrinin hazırlanması üçün informasiya texnoloji təminat mühitini və internetdən istifadəni tam təmin etsin. Hami təşkilatlar hami institutların tələbələrinin layihələrinin qəbulunu həyata keçirsin, ictimai əsaslarla yaradılan qurumlarda ekspert şurasının köməyi ilə dəyərləndirsin, müxtəlif müsabiqələr təşkil etməklə onları qiymətləndirsin. Layihələr humanitar, ictimai-siyasi, texniki, ictimai, tibb və sairə sahələr üzrə hazırlanmalı, bir və ya bir neçə nəfərdən ibarət olan komanda tərəfindən təqdim olunmalıdır. Layihələr həm qlobal, həm də yerli şəraitdə istifadə oluna biləcək sahələrə həsr edilməlidir.

Qeyd olunmuşdur ki, təqdim edilən layihələrin son məqsədi real biznesin qurulmasına, xidmətlərin, sosial servislərin təqdim edilməsinə yönəlməli və effektiv innovasiyalar üzərində qurulmalıdır. Elmi inkişafa xidmət edən layihələr daha çox informasiya texnologiyalarının nailiyyətlərini özündə əks etdirməli, ölkədə yeni əmək bazarının və təhsil iqtisadiyyatının formalaşmasına xidmət etməlidir. Ali və orta ixtisas təhsili müəssisələri hamiliyə verilən təşkilatlarla birlikdə "Startap Naxçıvan" hərəkatı çərçivəsində startapçılar üçün yerli və beynəlxalq səviyyəli təlimlər təşkil etməlidir.

Naxçıvan Dövlət Universitetində təlimlərin keçirilməsində Distant Təhsil Mərkəzinin imkanlarından istifadə edilməlidir. Hami təşkilatlar uğurlu layihələrin investorlara təqdim edilməsində investor və startapçı münasibətlərin qurulmasında əlaqələndirici qismində iştirak etməlidir. Hami təşkilatlar qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi ilə əlaqədar startap görüşləri və müzakirələrinin təşkil olunmasına, qaliblərə mükafatların təqdim edilməsinə, layihələrin birbaşa maliyyələşməsinə nəzarət və onların investorlara və müxtəlif fondlara təqdiminə köməklik göstərməlidirlər. Layihələr təqdim olunduqdan sonra Startap günləri keçirə, həmçinin respublika və beynəlxalq səviyyəli müsabiqələrə qatıla bilərlər.

Ali Məclisin Sədri demişdir: Hami təşkilatlar və hamiliyə verilən təhsil müəssisələri yeni formalaşmaqda olan startapçıları, startap komandalarını əmək bazarının spesifik xüsusiyyətləri ilə tanış etməli, startapçılar arasında əlaqələri gücləndirmək məqsədilə hər il "Startap festivalı" keçirməlidir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi aid təşkilatların təklifləri əsasında layihələrə, o cümlədən startap fəaliyyətinə nəzarət mexanizmini asanlaşdıran internet portalının yaradılmasını təmin etməlidir. Təhsil Nazirliyi ali məktəblərin professor və müəllim heyətləri ilə yeni dərslik və dərs vəsaitlərinin müzakirəsinə diqqəti artırmalı, Mədəniyyət Nazirliyi açıq dərslərin, ustad dərslərinin, dəyirmi masa və müzakirələrin keçirilməsini diqqətdə saxlamalı, tələbələrin mütaliəsinin, tarix və mədəniyyətimizə dair biliklərinin zənginləşməsi üçün müvafiq ixtisasların buklet, kitab və broşürlərlə təmin olunmasına köməklik göstərməlidir. Gənclər və İdman Nazirliyi Əlahiddə Ümumqoşun Ordu ilə birgə gənclərin hərbi-vətənpərvərlik işini diqqətdə saxlamalı, Gənclər Fondu ilə birlikdə maarifləndirici tədbirlərin keçirilməsini təmin etməlidir. Gənclər ideya və bacarıqlarına uyğun istiqamətləndirilməli, onların ideyaları sosial şəbəkələr vasitəsilə yayılmalı, fərqlənən gənclər mükafatlandırılmalıdır.

Tapşırılmışdır ki, Səhiyyə Nazirliyi hami ixtisaslarla birgə elmi konfransların təşkilinə diqqəti artırsın, Tibb fakültəsi müəllimlərinin nəşr etdikləri dərs vəsaiti və dərsliklərin səhiyyə müəssisələrində müzakirələrini keçirsinlər. "Auditoriyadan xəstəxanaya" devizi altında xəstəxanalardan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin və Tibb kollecinin tələbələrinə cərrahiyyə prosesinin onlayn yayımını təşkil etsinlər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılır ki, əmək bazarının tələblərinə uyğun kadr hazırlığı işinə nəzarəti artırsın, sosial layihələrin həyata keçirilməsini davam etdirsin. Turizm Departamenti muxtar respublikanın turizm potensialının internet üzərindən tanıdılması və təbliğində tələbələrin iştirakını, onların yaradıcı baxışından səmərəli istifadəni təmin etsin.

Müşavirədə Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinə tapşırılmışdır ki, "Naxçıvan Muxtar Respublikasında startapın inkişaf perspektivləri" adlı respublika konfransının keçirilməsini təmin etsin. Həmçinin "Kəşf et, öyrən, yarat!" devizi altında startap günlərinin keçirilməsi təmin edilsin. Startap fəaliyyətinə nəzarət mexanizmini asanlaşdıran internet portalının yaradılması və fəaliyyətinə nəzarət, startapla bağlı məlumatlandırıcı buklet, broşür və kitabçaları hazırlansın.

Ali Məclisin Sədri qarşıda duran vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulamışdır.

Sonda "Startap layihələri və innovativ inkişaf" filminə baxış olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Dövlət Universitetinin kollektivi Bəhruz Kəngərli Muzeyində olub





"Muzey günləri" çərçivəsində Naxçıvan Dövlət Universitetinin kollektivi Bəhruz Kəngərli Muzeyində olub. Bələdçi bildirib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə yaradılıb. Ümummilli lider Heydər Əliyev 2002-ci il iyunun 18-də muzeyin açılışında iştirak edib.

Qeyd edilib ki, muzeyin fondunda, ümumilikdə, 1250-dən artıq eksponat vardır. Bunlardan 388-i muzeyin ekspozisiyasında sərgilənir. Binanın birinci mərtəbəsində yerləşən 4 ekspozisiya zalında 181, ikinci mərtəbəsində yerləşən 5 ekspozisiya zalında isə 206 eksponat nümayiş olunur. Bunlardan 61-i orijinal rəsm əsəridir.

Diqqətə çatdırılıb ki, teatr rəssamlığı, qrafika və digər janrlara müraciət edən, portret janrında dəyərli əsərlər yaradan Bəhruz Kəngərli bütün ömrü boyu mədəniyyətimizin inkişafı naminə yorulmadan çalışıb. Görkəmli rəssam doğma Vətəninin gözəlliklərini tərənnüm edib. Onun kömür, karandaş, akvarel və yağlı boya ilə müxtəlif janrlarda yaratdığı 500-ə yaxın əsəri indi də incəsənət muzeylərinin dəyərli eksponatları sırasındadır. O, dövrünün görkəmli şəxslərinin rəsmlərini çəkib, portret janrında dəyərli əsərlər yaradıb. Azərbaycanlıların başına gətirilən müsibətləri, ermənilər tərəfindən doğma yurdundan zorla qovulmuş azərbaycanlı qaçqınların taleyini əks etdirən "Qaçqınlar" silsiləsinə daxil olan əsərləri Azərbaycan tarixinin, xalqın dəyərli sənət yaddaşıdır.

Bildirilib ki, sağlamlıq imkanları məhdud olan sənətkar cəmi 30 il ömür sürüb. O, təkcə tanınmış rəssam kimi deyil, həm də maddi çətinliklərinə baxmayaraq, əsərlərini sərgiləməklə kasıb ailələrin uşaqları üçün məktəb pulu toplayan, onların təhsil almasına köməklik göstərən görkəmli şəxsiyyət kimi tarixdə yaşayır.

Qeyd edək ki, muxtar respublikada Bəhruz Kəngərli irsi də hər zaman diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" 2001-ci il 15 fevral tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonuna Bəhruz Kəngərlinin adı verilib, rəssamın əsərlərindən ibarət albom-kataloq hazırlanıb. Ali Məclis Sədrinin 2012-ci il 12 yanvar tarixli Sərəncamına əsasən rəssamın 120 illik yubileyi muxtar respublikada geniş şəkildə qeyd olunub. 2016-cı ilin may ayının 25-də isə Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkı istifadəyə verilib, parkda görkəmli rəssamın abidəsi ucaldılıb.

**Səadət ƏLİYEVA**
***NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən bir sıra qərarlar qəbul edilib

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən 2019-cu ilin aprel ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edilmişdir.

Belə ki, Nazirlər Kabinetinin 2019-cu il 1 aprel tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi haqqında" və "İri sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsinin müddətlərinin və ardıcıllığının müəyyən edilməsi haqqında" Qərar qəbul edilmişdir.

Bundan başqa, "Naxçıvan Muxtar Respublikasında "Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 15 sentyabr tarixli 85 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında", həmçinin "Naxçıvan Muxtar Respublikasında fərdi məşğulluq proqramının yerinə yetirilməsi Qaydası və hesabatın forması"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 yanvar tarixli 18 nömrəli Qərarında da dəyişikliklər olunmuşdur. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasının büdcədən maliyyələşdirilən meliorasiya və su təsərrüfatı işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği"nin təsdiq edilməsi barədə" 2015-ci il 14 yanvar tarixli 5 nömrəli və "Naxçıvan Muxtar Respublikasında peşə hazırlığı, yenidən hazırlıq və ixtisasartırma dövründə vətəndaşlara verilən təqaüdün minimum məbləğinin təsdiq edilməsi haqqında" 2018-ci il 17 yanvar tarixli 10 nömrəli qərarlarında dəyişikliklər edilmişdir.

Əlavə olaraq bildirilir ki, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kənd təsərrüfatı texnikasının və texnoloji avadanlıqların hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması Qaydaları"nın təsdiq edilməsi və "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi haqqında" 2005-ci il 8 aprel tarixli 61 nömrəli və "Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi ilə əlaqədar bəzi məsələlər barədə" 2008-ci il 7 oktyabr tarixli 89 nömrəli və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 3 noyabr tarixli 113 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumunun və qanunvericiliyə uyğun olaraq tətbiq edilən cərimələrdən daxil olan vəsaitin həmin xidmətləri və hüquqi hərəkətləri həyata keçirən və ya təşkil edən dövlət orqanlarının, habelə dövlət notariat ofislərinin xəzinə hesabına köçürülməsi, istifadə edilməsi, uçota alınması və hesabatın təqdim edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında" qərarlarında da bir sıra dəyişikliklər edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Gənclər hərbi xidmətə yola salınır



"Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 fevral tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Mərasimdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, ədliyyə müşaviri Emin Səfərov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov, təhsil nazirinin müavini Ovni Muradov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Qəzənfər Kətanov övladının hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiyini bildirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Fuad İbrahimov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisi vəzifəsini icra edən mayor Cavid Məmmədov bildirib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu gün Azərbaycanın, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini sayıqlıqla qoruyan müasir və güclü ordusu vardır. Bu gün ordumuz istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir.

Cavid Məmmədov Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini təbrik edib və əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə, hərbi texnikanın sirlərinə yaxından yiyələnməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla onların başını bir daha uca edəcəklər.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Qeyd edək ki, həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin ordu sıralarına yolasalma mərasimləri keçirilib.

**Pərviz HACILI**

## Yeni yaşıllıqlar salınıb, təmizlik işləri aparılıb



Ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsi Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biridir. Bu, xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi ekoloji siyasətin bu gün ölkəmizdə uğurla həyata keçirilməsinin nəticəsidir ki, son illər muxtar respublikada da yaşıllıqların həcmi dəfələrlə artıb, qədim diyarımız yaşıllıqlar məskəninə çevrilib. Ötən dövr ərzində diyarımızda ekologiyanın mühafizəsi, bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində də mühüm tədbirlər həyata keçirilib, yeni əkilən ağacların suvarılmasında damcı üsulunun tətbiqi genişləndirilib, bəzək kolları, həmişəyaşıl, həmçinin meşə ağaclarının əkilməsi, müntəzəm olaraq onlara qulluq edilməsi diqqət mərkəzində saxlanılıb, ekoloji tarazlığın qorunmasında müstəsna rola malik olan yaşıllıq zolaqlarının bərpası və artırılması istiqamətində aparılan işlər prioritet vəzifəyə çevrilib.

Cari ildə də bu tədbirlər davam etdirilməkdədir.

Aprelin 13-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkili ilə diqqət çəkirdi. Naxçıvan şəhərinin sakinləri, idarə, müəssisə və təşkilatların nümayəndələri bu tədbirdə fəallıq göstəriblər. Onlar Çalxanqala kənd yolunun kənarlarındakı 2 hektarlıq ərazidə 200 meyvə, 1 hektarlıq ərazidə 17 min üzüm tingi, Dövlət Yol Polisi İdarəsinin yaxınlığında, magistral yolun sağ hissəsindəki 3 hektarlıq ərazidə bərpa məqsədilə 540 meyvə ağacı əkiblər.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun sakinləri də əvvəlki iməciliklərdə olduğu kimi, əzmkarlıq nümayiş etdirib. "Gənclər bağı"nda bərpa məqsədilə 60 meyvə ağacı əkilib, həmin ərazidə, həmçinin Püsyan kəndindəki 7 hektarlıq badam bağında ağaclara aqrotexniki qulluq göstərilib, ağartma və suvarma işləri görülüb.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilib. Bölgə sakinləri muxtar respublikanın ekologiyasına öz töhfələrini verməyə çalışıb, Hacıvar-Qahab kəndləri arasındakı yolkənarı yaşıllıq ərazilərində və Şıxmahmud kəndindəki iməcilik keçirilən sahələrdə ağaclara aqrotexniki qulluq göstərilib, ağartma və suvarma işləri həyata keçirilib.

Bağlar diyarı Ordubadda da iməciliklərdə mütəşəkkillik müşahidə edilib. Naxçıvan-Ordubad magistral yolunun kənarlarında bərpa məqsədilə 3140 meyvə ağacı, Əylis düzündəki 10 hektarlıq qızılgül bağında 7400 gül kolu əkilib.

Culfa rayonunun sakinləri hərbi hissənin yaxınlığındakı 0,5 hektarlıq ərazidə bərpa məqsədilə 40 meyvə, Dizə kəndindəki yaşıllıq ərazisində bərpa məqsədilə 80 meşə ağacı, Milax kəndindəki 0,4 hektarlıq ərazidə 200 meşə ağacı əkiblər.

Kəngərli rayonunun Naxçıvan-Sədərək magistral yolunun kənarlarındakı yaşıllıq ərazilərində və həmin magistral yolun Xok kəndi hissəsindəki 7 hektarlıq badam bağında ağaclara aqrotexniki qulluq göstərilib.

Şahbuzlular Daylaqlı kəndindəki 1 hektarlıq ərazidə 1000 meyvə, Naxçıvan-Şahbuz-Batabat magistral yolunun kənarlarında 225 meşə və 200 həmişəyaşıl ağac, Şahbuzkənd yolunun kənarlarında bərpa məqsədilə 300 meyvə, Ayrınc kəndindəki 0,6 hektarlıq ərazidə 820 üzüm tingi və 0,4 hektarlıq ərazidə 210 meyvə ağacı əkiblər.

Sədərəklilər Naxçıvan-Sədərək magistral yolunun kənarlarında 1500 meşə ağacı və 200 həmişəyaşıl ağac, Heydərabad qəsəbəsindəki park və xiyabanlarda 500 gül kolu əkiblər.

İməciliklərdə 22 min 334 nəfər iştirak edib. Ümumilikdə, 35 min 415 olmaqla, 505 meşə, 8790 meyvə, 400 həmişəyaşıl ağac, 7900 gül və bəzək kolu, 17 min 820 üzüm kolu əkilib.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılıb.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu 2019-cu ilin birinci rübündə nəzərdə tutulmuş tapşırıqların icrasını təmin etmişdir.*

## 405 vətəndaş üçün əmək pensiyası təyin olunub

Belə ki, pensiya ödənişinin vaxtından əvvəl maliyyələşdirilməsi üçün müvafiq tədbirlər görülmüş, bu məqsədlə tələb olunan 35 milyon 248 min manat vəsait pensiyaçıların kart hesablarına köçürülmüşdür. Əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi təmin edilmiş, həmin şəxslərin şəxsi hesablarına və ya poçt ünvanlarına 746 min manat vəsait köçürülmüşdür.

2019-cu ilin birinci rübündə müvafiq mərkəzi icra hakimiyyəti orqanı tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə fondun xəzinə hesabına 18 milyon 216 min 900 manat vəsait daxil olmuş, pensiya hüququ yaranmış 405 vətəndaş üçün əmək pensiyası təyin olunmuşdur. Yeni təyin olunan pensiyaçılardan 253-ü yaşa, 41-i əlilliyə, 111-i isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlar olmuşdur. Ötən dövrdə 63 pensiyaçının müraciəti nəzərə alınaraq pensiyaları kəndlərdəki poçt bölmələrində ödənilmişdir. Əmək fəaliyyətinə yeni başlayan işçilərin fərdi uçot sistemində qeydiyyata alınması və sosial sığorta şəhadətnamələri ilə təmin olunması işi də diqqətdə saxlanmış, 322 nəfərə fərdi hesab açılmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin 2019-cu il 7 fevral tarixli Sərəncamına əsasən cari il yanvar ayının 1-dən etibarən əmək pensiyasının sığorta hissəsi indeksləşdirilərək 2018-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 3 faiz artırılmışdır. Sərəncamın icrası nəticəsində muxtar respublika üzrə 48 min 900 nəfərə yaxın pensiyaçının pensiyasında artım qeydə alınmışdır. Həmçinin fərdi uçot sistemində qeydiyyatda olan 172 min 309 sığortaolunanın fərdi hesabının sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsi xüsusi proqram vasitəsilə avtomatlaşdırılmış şəkildə həyata keçirilmişdir. Dövlət başçısının humanist təşəbbüsü əsasında mart ayının 1-dən etibarən əmək pensiyasının minimum məbləği 38 faiz artırılaraq 160 manata çatdırılmışdır. Bu istiqamətdə operativ tədbirlər həyata keçirilmiş və mart ayının ilk on günlüyündə bütün pensiyaların artımla verilməsi təmin olunmuşdur. Görülmüş tədbirlər nəticəsində muxtar respublika üzrə, ümumilikdə, 11 min 330 nəfərin pensiyalarının məbləği 160 manata çatdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## Növbəti əmək yarmarkası keçirilib

Dünən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə növbəti əmək yarmarkası Kəngərli rayonunda keçirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikamızda yeni iş yerlərinin açılmasına, əmək ehtiyatlarının iqtisadi fəallığının yüksəldilməsinə öz töhfəsini verir.

Qeyd olunub ki, dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün mərkəzin əməkdaşları rayondakı idarə, müəssisə və təşkilatlarda, sahibkarlıq subyektlərində boş iş yerləri haqqında məlumatlar toplayaraq həmin yerləri əmək yarmarkalarında işaxtaran vətəndaşlara təqdim edirlər. Çıxışlardan sonra tədbir iştirakçıları idarə, müəssisə və təşkilatlar tərəfindən əmək yarmarkasına çıxarılmış boş iş yerləri ilə tanış olublar. 17 müəssisədən 139 boş iş yerinin çıxarıldığı tədbirdə 36 nəfərə işə göndəriş verilib. Yarmarkada iştirak edən sakinlər vurğulayıblar ki, əmək yarmarkalarının keçirilməsi işaxtaran insanlar üçün böyük imkanlar yaradır. Onlar yarmarkanın təşkilində əməyi olanlara minnətdarlıqlarını bildiriblər.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

*"Ailə təsərrüfatları ili" – 2019*

## Torpağa bağlı zəhmətkeş qadın

*Əlverişli torpaq və iqlim şəraiti ilə seçilən Şahbuz rayonunda 100-ə yaxın ailə təsərrüfatı mövcuddur. Onlardan biri də Ayrınc kənd sakini Süräyya Quliyevanın başçılıq etdiyi təsərrüfatdır.*

Ağır fiziki qüvvə tələb edən əkinbiçindən söhbət gedərkən ilk olaraq kişilər yada düşür. Ancaq Süräyya xanım öz zəhməti və əzmkarlığı ilə sübut edib ki, bu işlər, sadəcə, qol gücü ilə əldə olunmur. Polad iradə, əzmkarlıq, zəhmətkeşlik, torpağa bağlılıq istər kişi olsun, istər qadın, insanı qarşıya qoyduğu məqsədlərə aparır. Bu zəhmətkeş qadın uzun illərdir ki, torpağa mehr salıb, halal zəhmətinə güvənib. Hər sevincini, şirin arzularını toxuma qarışdırıb torpağa səpib, yaşıl tarlaları, bol məhsullu zəmilərin başına pərvanə kimi dolanıb. Bu qayğıdan, nəvazişdən sanki torpaq da xoşhal olub, onun çəkdiyi zəhmətin, axıtdığı alın tərinin əvəzini səxavətlə qaytarıb, yetirdiyi məhsulun bərəkətini birə-min edib.

1956-cı ildə rayonun Kükü kəndində anadan olan Süräyya xanım hazırda Ayrınc kəndində yaşayır. O, Naxçıvan Dövlət Universitetində təhsil alıb. 25 il bağça müdiri vəzifəsində işləyən Süräyya xanımın təsərrüfat sahəsinə marağı isə gənc yaşlarından yaranıb.

Onunla elə zəhmətə qatlaşaraq güzəranını təmin etdiyi təsərrüfat sahəsində görüşdük. Çünki ilin bu vədəsində söhbət etmək üçün əsl zəhmət adamının asudə vaxtını tapmaq, demək olar ki, mümkünsüzdür. O deyir ki, hələ gənc ikən həyətimizdə üzüm bağımız var idi. Elə ki üzüm mövsümü gələrdi, bütün günü həmin üzüm kollarının nazı ilə oynayardım. Məhsul toplanana qədər vaxtımın çoxu bu üzüm kollarına qayğı göstərməklə keçərdi. Zəhmətin nə demək olduğunu da elə o vaxtlardan dərk etmişik. Torpağa bağlılıq qanımıza elə hopub ki, məsul vəzifədə işlədiyim çağlarda belə, ana təbiətdən əlimi üzməmişəm, illər uzunu torpağın köksündə zəhmət cığırı açmışam.



Süräyya Quliyevanın sözlərinə görə, əvvəllər kənd təsərrüfatı texnikalarının azlığı, suyun olmaması, məhsuldar toxum sortlarının tapılmaması kənd adamlarının zəhmətini birə-beş artırır, bunun müqabilində də istənilən məhsuldarlığa nail olunmurdu. Torpaqlar kəndliyə verilsə də, imkansızlıq ucbatından sahələrin çoxu əkilmirdi. İndi isə artıq bir zamanlar keçilməsi mümkünsüz sayılan ərazilərdə belə, əkin-biçin işləri aparılır. Buna səbəb Süräyya xanımın da idarə etdiyi texnikaların alınıb gətirilməsidir. Bəli, yanlış oxumadınız. Siz də nə vaxtsa Süräyya xanımla onun sahəsində görüşməli olsanız, şumlanaraq qabar-qabar olmuş bu ərazilərdəki texnikaları da görəcəksiniz. Sükan arxasında isə elə məhz bu zəhmətkeş xanımı. Süräyya xanım səhərlər "Niva" markalı avtomobilinə əyləşərək təsərrüfat sahəsinə yollanır. Daha sonra traktorun yer titrədən avazı bu düzlərin dərinliyində əks-səda verir. Bu əks-sədanı da yüksəldən elə Süräyya xanımın özüdür.

Bildirir ki, 2012-ci ildə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə müraciət edərək lizinq yolu ilə yeni traktor əldə edib. Ailənin təsərrüfat işlərində iki oğlu ona yaxından kömək etsə də, traktoru idarə etməyi öz öhdəsinə götürüb. Onun bu təşəbbüsü, təbii ki, çoxlarını heyrətləndirib. Amma Süräyya xanım üçün bu, adi bir məşğuliyyətdir: – Bu nəhəng texnikanı aldığım gündən özüm işlədirəm. Hər bir işinə də bələdəm. Odur ki, heç bir çətinlik çəkmirəm. Torpaq nəfəsli, zəhmət qoxulu zəmilərdən əldə edilən qazancla özümə yük maşını da almışam. Ondan, əsasən, əraziyə gübrə və əldə etdiyim məhsulu daşımaqda istifadə edirəm.



Müsahibim onu da vurğulayır ki, ümumiyyətlə, bu diyarın insanları zəhmətkeşdir. Hər bir qarış sahənin qədri bilinən yurd yerimizdə hamı torpaqdan ikiqat yapışıb. Kəndli yaxşı dərk edir ki, ən qiymətli sərvət olan torpaq daimi ruzi-bərəkət mənbəyi, iş yeridir, gün-güzəranın yüksəldilməsində ən yaxın dostdur. Ona görə də bu sərvətin qədrini bilirik. Biz təsərrüfatçılar üçün yaradılan şəraitin nəticəsidir ki, artıq kənddə yaşayan hər kəsin təsərrüfat işlərinə marağı ildən-ilə artır, bu sahəyə üz tutanların sayı günbəgün çoxalır. Mənim 101 hektar torpaq sahəm vardır. Bu sahədə texnikanın da gücündən istifadə edərək buğda və arpa əkib-becərirəm, tədarük olunan məhsulu da kənddə fəaliyyət göstərən dəyirmana verirəm. Bundan əlavə, Qanlıgöl yaylağında 3 hektardan artıq ərazidə kartof sahəm var. Elə il olur ki, həmin sahədən 100 tondan artıq məhsul götürürük. Yığılan məhsulun bir hissəsini qış üçün tədarük edir, kiçik olanları toxum üçün ayırır, qalanını isə satırıq.

– Yəqin ki, tədarük etdiyiniz məhsulu kənd təsərrüfatı yarmarkalarına çıxarırsınız? – sualına isə təsərrüfat sahibi cavab verir ki, məhsullarımızı yarmarkaya çıxarmağa ehtiyac qalmır. Çünki alıcısı başının üzərindədir. Axı bu yerlərin Pünhan bulağının suyu ilə yetişən kartofun dadı dillər əzbəridir. Kartofun daimi müştəriləri məhsulu elə yerindəcə – sahədən alırlar.

Təbii ki, zəhməti bu qədər sevən Süräyya Quliyevanın təsərrüfat sahələri sadaladıqlarımızla məhdudlaşmır. Onun idarə etdiyi ailə təsərrüfatında digər məşğuliyyət sahələri də var. Məsələn, həyətyanı sahəsinin bir hektarında saldığı meyvə bağına baxdıqca dəmir iradəli, igid hünərli bu xanımın işgüzarlığı qarşısında heyranlığımı gizlədə bilmirəm. Hələ bağda sıra ilə düzülən arı yeşiklərini demirəm. Yaz aylarında al-əlvan çiçəyə bürünən bu meyvə bağı təkcə gələcəyin məhsulu deyil, həm də arıların nektar deposudur. Elə ki çiçəkləmə dövrü başa çatdı, Süräyya xanım arı yeşiklərini avtomobilinə yükləyib çiçəklərin köksünə rəngarəng xalı sərdiyi səfalı Şahbuz dağlarına çıxarır.

Əməksevər təsərrüfatçı deyir ki, şükür Allaha, çəkdiyim zəhmətin bu gün bəhrəsini ürəyimcə görürəm. Ötən il "Tərəqqi" medalı ilə təltif edilmişəm. Bu il isə Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən muxtar respublikanın ictimai həyatında, təhsil, səhiyyə və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə təltif olunan qadınlar arasında mən də var idim. Yurdumun gözəlürəkli insanlarının diqqətini üzərimdə hiss etmək məni qəlbən çox sevindirir.

Bir sözlə, nümunəvi ailə təsərrüfatçısı Süräyya Quliyeva zəhməti, hünəri, geniş ürəyi və cəsarəti ilə çoxlarına, hətta belə deyərdim ki, zəhmətə qatlaşmağı özünə əziyyət bilən bəzilərinə nümunədir. Məhz onun simasında bir daha etiraf etməliyik ki, işləmək istəyən üçün hər yerdə iş var. Sadəcə, qarşına məqsəd qoyub, o məqsəd uğrunda zəhmət çəkməlisən. Necə ki Süräyya xanım bol məhsul əldə etmək məqsədinə çatmaq üçün traktoru idarə etməkdən belə, çəkinmir. Dəmir iradəli zərif cinsin nümayəndəsi həm də bir daha onu sübut edir ki, kənd adamı üçün yaxşı dolanışıq yeri, firavan yaşamaqdan ötrü ən sərfəli və ən etibarlı iş yeri elə torpaqdır. Torpaq heç zaman borclu qalmır, çəkilən zəhmət hədər getmir.

Onun təsərrüfatından zəngin təəssüratlarla ayrıldım. Zəhmətdən qabarıb codlaşan o əlləri sıxıb sağollaşdım. İkimiz də tələsirdik. O, yarımçıq qalmış işini tamamlamaq üçün traktoru işə salmağa, mənsə öz təəssüratlarımı sizinlə bölüşmək üçün bu yazını hazırlamağa...

**Gülcamal TAHİROVA**

Naxçıvan mətbəxi

# Süfrələrin ləziz tamı – kətə

*Naxçıvan təbiətinin yetirdiyi min bir təbii sərvət, bu torpaqda bitən bitkilər şəfalı və faydalı olmaqla yanaşı, həm də burada hər fəslə, hər mövsümə uyğun zəngin mətbəx mədəniyyətinin əsasını qoymuşdur. Qədim diyarımızda yaz fəslində ağız ləzzəti ilə yeyilən belə mətbəx nümunələrindən biri – kətə haqqında yazmaq qərarına gəlirik. Torpaqdan boy göstərən nanənin, yarpızın ətri aləmi bürüdüyü, quşəppəyinin, cincilimin, çirişin gəl-gəl dediyi yaz günlərinin birində yolumuz Kəngərli rayonunun Nuh yurdunun özü qədər qədim olan Yurdçu kəndinədir. Burada Tofiqə xalanın qonağı olub yaz günlərinin ləziz tamlı kətələrin həm bişirilmə qaydasını öyrənir, həm də dadına baxırıq. Təndir başında toplanan qonşu qadınlarla hal-əhval tutduqdan sonra söhbətə başlayırıq. Onu da qeyd edim ki, bu cür işlər, adətən, mərasim şəklində olur. Bir qonşunun həyətində təndir qalanır və digər qonşular köməyə gəlirlər. Özləri ilə hazırlayıb gətirdikləri xəmirdən kətə bişirirlər.*

Kətənin hazırlanması ilə bağlı hər bir xanımın öz sirri var, – deyən ev sahibəsi Naxçıvanda bişirilən şomu, qarışıq göyərti, çiriş, gicitkən, balqabaq, mərcimək, lobya, cəviz, halvalı, şirin, döymə, dürmək kətələrindən söhbət açır. O deyir ki, yazın ilk aylarında yeyilə bilən yabanı bitkilərdən hazırlanan kətə çeşidləri Naxçıvan mətbəxində xüsusi yerə malikdir. Göyərti qutabı, kətə, əsasən, yaz aylarında, pencər bol olan vaxt bişirilir. Kətələri dağlarda bitən ən dadlı pencərlərimizlə hazırlayırıq. Dadı ilə seçilən bitkilərin tərkibi vitamin və minerallarla zəngin olduğu üçün onlardan hazırlanan kətələr insan sağlamlığına çox xeyirlidir. Kətə bişirmək üçün acıtamlı xəmir yoğururlar. Acıtma üçün xəmrədən istifadə edirlər. Xəmir gəldikdən sonra ərsinlə xəmiri tikələrə bölüb kündələr hazırlayır, bu kündələri də bir az saxlayırlar. Sonra isə çörək taxtasının (dairəvi formada ağacdan hazırlanır) üstündə nazik təbəqə formasında yayılır.





Tofiqə xala deyir ki, öncədən pencər yuyulur, suyu quruyandan sonra narın doğranır, üzərinə duz səpilir. Dağ pencərlərindən bəziləri əvvəlcədən qaynadılıb sıxılır və yağda qovurulur. Bir az tez bişənlər, məsələn, salmanca pencəri isə doğrandıqdan sonra aşsüzənə tökülür, üzərinə duz səpilir, yuxanın içərisinə qoymazdan əvvəl ovulur və sıxılır. Daha sonra pencəri yuxanın yarısına yayıb digər hissə ilə pencərin üstü örtülür, əllə astaca üstündən basılıb xəmirin ucları bir-birinə yapışdırılır. Hazır bükülmüş kətələr sacın üzərində, yaxud da qızmar təndirdə bir neçə dəqiqə bişirilir.

Tofiqə xala onu da qeyd edir ki, sacda bişirilən kətənin xəmirini bir az nazik, təndirə yapılan kətəni isə nisbətən qalın açmaq lazımdır. Təndirdə bişirilən kətənin xəmirini təzə pendirin suyu ilə yoğurub yapmazdan əvvəl həm təndirin divarlarına, həm də kətənin arxasına duzlu su çiləsək, bu, kətənin təndirin badına daha yaxşı yapışmasına kömək edər. Sacda bişirilən kətələrin hər iki üzünü qızartmaq lazımdır. Bişən kətə sacdan götürülür, təndirdən çıxarılır, üstü deşilib içərisinə yağ qoyulur. Kətələr üst-üstə yığılaraq üzəri örtülür, 10-15 dəqiqə saxladıqdan sonra yeyilir.

Söhbətimizə qoşulan evin gəlini Sevinc xanım bildirir ki, kətənin hazırlanma üsulu bütün bölgələrdə eyni olsa da, spesifik xüsusiyyətlərinə, içliyin hazırlanmasında istifadə olunan məmulata, ölçüsünə görə və sair bir-birindən fərqlənir. Çox sayda pencərin qarışımından bişirilən kətəyə el arasında “tənbəl kətəsi” də deyirlər. Sevinc xanımın sözlərini eşidən yaşı səksəni ötmüş Nəcibə nənə kətə haqqında bir rəvayət danışır:

– Qədim zamanlarda şah var imiş. O, bir gün şəhəri gəzməyə çıxır, təsadüfən bir qocanın evinə qonaq olur. Bu kişinin də bir tənbəl qızı olur. Padşahın gəldiyini görən ata qızına yemək hazırlamağı tapşırır. Tənbəl qız evdə nə qədər pencər var, hamısını qatır bir-birinə və kətə bişirib şaha təqdim edir. Şah bu kətəni çox bəyənir. Elə həmin günün səhəri qıza elçi göndərib, atasından razılıq alıb onunla ailə qurur. O vaxtdan bu kətənin adı da “tənbəl kətəsi” qalır. El arasında qızlara “bəxtin tənbəl bəxti olsun”, – deyimi də elə bu rəvayətdən yaranıb.

Nəcibə nənə bir məsləhət də verir. O deyir ki, kətəni, qutabı yedikdən sonra bir az qatıq, ya da ayran içmək onun rahat həzm edilməsinə səbəb olur. Ümumiyyətlə, xəmir yeməkləri ağır olduğundan onların yaxşı həzm edilməsi üçün bu yeməklər olan süfrəyə qatıq, ayran qoymaq məsləhətdir.

Ət qutabının hazırlanmasından söhbət açan digər bir qadın – Asya xanım deyir: – Əvvəlcə un, su və duz qatılmaqla xəmir yoğurulur, nazik şəkildə yayılır. Yumşaq qoyun əti və soğandan hazırlanmış qiyməyə lavaşa və ya narşərab qatılaraq qarışdırılır. Həmin qiymə nazik yayılmış xəmirin yarı hissəsinin üzərinə qoyulur, o biri yarısı ilə qiymənin üstü örtülür. Daha sonra qutabın kənarları əllə basılaraq yapışdırılır və sacın üstündə hər iki üzü qızardılır. Ət qutabı, adətən, quzu ətindən hazırlanır.

Asya xanım söyləyir ki, şor qutabının da hazırlanma texnologiyası ət qutabı ilə eynidir, sadəcə, içliyinə görə fərqlənir. Şor qutabında şor və ya kəsmikdən istifadə olunur. İçlik şora və ya kəsmiyə göyərti (əsasən, şüyüd), duz, istiot, yağda qovurulmuş soğan, nar dənələri əlavə edib qarışdırmaqla hazırlanır. Asya onu da qeyd edir ki, kətə bişirəndə rayonun daha çox Təzəkənd, Xıncab kəndlərinin ərazilərində bitən şomudan da istifadə edilir. Bu pencər yuyulub narın doğranır, duz vurulur, azca ovulur. Xəmirdən kiçik kündələr tutulur, oxlovla yayılır, üzərinə göyərti qoyulur, zərf şəklində bükülür, təndirə yapılır (eyni qaydada sobada da bişirilir). İsti-isti içərisinə kərə yağı və ya xama qoyularaq yeyilir. Eyni qaydada qırxbuğum, qazayağı, cacıq, quşdili və sairdən kətə hazırlanır.









Bəzən kətəni bişirərkən yayılmış xəmirin içərisinə göyərti ilə yanaşı, pendir də ovub tökürlər, – deyən Nəcibə nənə hamı tərəfindən sevilən və xüsusilə Novruz bayramında bişirilən lobya kətəsi haqqında da danışır:

– Bu kətənin xəmiri digərlərindən fərqlidir. Lobya toxumu və mərcimək əvvəlcədən yaxşı qaynadılıb süzülür, qovurduğumuz soğanla birlikdə ət maşınından keçirilir. Un, yağ, süd, maya və sarıkökü qarışdırıb, xəmir yoğurub acımasını gözləyirlər. Xəmir yaxşıca acıdıqdan sonra kündə salır, bu kündələri açaraq içərisinə hazırladığımız içlikdən qoyaraq bükübüb, yastılayıb, üzərinə yumurta sarısı vurub təndirdə bişiririk. Nənə onu da bildirdi ki, bu kətə Naxçıvan mətbəxinə məxsus olan ən qədim kətə növüdür.

Bizim başımız söhbətə qarışdı, xanımlar isə cürbəcür çöl pencərlərindən hazırladıqları kətələri bişirib yekunlaşdırdılar. Bişən hər növ kətənin ətri bir-birindən daha gözəl idi. İsti maş, salmanca kətəsinin ev kərəsi ilə dadına isə söz ola bilməzdi.

Nənənin şirin söhbətindən, ev yiyəsinin qonaqpərvərliyindən, isti təndir kətələrinin ləzzətindən doymaq olmasa da, şəhərə qayıtmağın vədəsi yetib, – deyib təndir başındakı qadınlarla sağollaşıb yola düşürük. Yolboyu “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçiriləcək növbəti “Kətə” festivalı haqqında düşünürəm. Nə yaxşı ki, milli-mənəvi dəyərlərimizin yaşadıldığı bir yurdun insanlarıyıq, – deyə fikrimdən keçir. Çünki özünəməxsus dad-tamı ilə qədimdən bəri mətbəximizdə yaşadılmış kətə çeşidlərinin tanıdılması üçün bu festivalların keçirilməsi çox böyük əhəmiyyət kəsb etməklə yanaşı, milli dəyərlərimizin, bənzərsiz mətbəximizin təbliği baxımından da əhəmiyyətlidir.

“Ailə təsərrüfatları ili”nə təsadüf edən növbəti “Kətə” festivalı isə həm də hünərdə, zəhmətkeşlikdə kişilərimizdən heç də geri qalmayan qadınlarımızın muxtar respublikada ailə təsərrüfatlarının formalaşmasında, sahibkarlığın, ümumiyyətlə, iqtisadiyyatın inkişafında özünəməxsus rolu olduğunu bir daha ortaya qoyacaq.

**Ramiyyə ƏKBƏROVA**

## Muxtar respublikanı ölkə birinciliyində təmsil edəcək komandalar məlum olub



*Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində gənclər arasında “Xəmsə” milli intellektual oyunu üzrə XI Azərbaycan çempionatının Naxçıvan Muxtar Respublika birinciliyi keçirilib.*

Yarışlar başlanmazdan əvvəl gənclər və idman naziri Azad Cabbarov çıxış edərək muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasəti, nazirlik tərəfindən gənclərin intellektual səviyyələrinin yüksəldilməsi istiqamətində reallaşdırılan tədbirlər, bu məsələdə intellektual oyunların əhəmiyyəti barədə danışıb. Nazir qeyd edib ki, belə tədbirlərin keçirilməsinin nəticəsində artıq muxtar respublikada intellektual gənclər ordusu yetişib. Bugünkü oyunda iştirak edən komandaların sayı bunu bir daha sübut edir.

Qeyd edək ki, “Bəlli”, “Şərtli”, “Sirli”, “Fərdi” və “Xəmsə” raundlarından ibarət olan oyun 10 mərhələ, 3 yarımfinal və final mərhələsindən ibarət olub. Yarımfinal mərhələlərində ən yüksək xal yığaraq birinci və ikinci yerə çıxan komandalar finala vəsiqə qazanıblar. Belə ki, “Aran”, “Turan”, “Diplomat” və “Qisas” komandaları finalda mübarizə aparıblar.

Sonda “Diplomat” komandası hamıdan güclü olub. Digər iki pillədə isə “Turan” və “Qisas” komandaları qərarlaşıblar. Qalib gələn komandalara Gənclər və İdman Nazirliyi tərəfindən kubok, diplom, fəxri fərmanlar təqdim olunub.

İntellektual oyun Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Qalib komandalar “Xəmsə” milli intellektual oyununun XI Azərbaycan çempionatında muxtar respublikanı təmsil edəcəklər.

**Ceyhun MƏMMƏDOV**

## “Şahin” hərbi-idman oyununun muxtar respublika birinciliyi

*Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasında keçirilən “Şahin” hərbi-idman oyununun muxtar respublika birinciliyinə yekun vurulub.*

Oyun 3 tur – məktəbdaxili-seçmə mərhələsi, rayon (şəhər) birincilikləri və muxtar respublika birinciliyi üzrə keçirilib. Hərbi-idman oyununun muxtar respublika mərhələsinə rayon (şəhər) birinciliklərində qalib olan komandalar vəsiqə qazanıblar. Hər komandanın tərkibində 14 nəfər (10 oğlan, 4 qız) VIII və X sinif şagirdləri iştirak edib.

Hakimlərin qərarına əsasən Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. Ordubad şəhər internat tam orta məktəbinin komandası ikinci, Culfa rayon Əbrəqunus kənd tam orta məktəbinin komandası isə üçüncü yerlərə layiq görülüblər.

Qalib komandalara təşkilatçıların kubok və diplomları təqdim edilib, yarışda müxtəlif bəndlər üzrə fərqlənən iştirakçılar isə fəxri fərmanlarla təltif olunublar.

Oyun Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil, Fövqəladə Hallar nazirlikləri, Əlahiddə Ümumqoşun Ordu, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə keçirilib.

Qeyd edək ki, qalib komanda may ayında təşkil olunacaq “Şahin” hərbi-idman oyunu üzrə Azərbaycan birinciliyində muxtar respublikanı təmsil edəcək.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


***İtmişdir***

Türkiyə vətəndaşı Artantaş Ali Haydar Tahir oğlunun adına Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 266